## office


**От:** Ramiz Ibrahimzade <ramizibrahimzade0@gmail.com>
**Отправлено:** 1 октября 2021 г. 13:19
**Кому:** office@barassociation.az

**Вложения:** IMG_20211001_131433.jpg

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2684
« 04 » 10 2021

Azərbaycan Respublikası Vəkillər
Kollegiyasının sədri

cənab Anar Bağırova

Xəzər rayonu, Şahan qəsəbəsi, 3 saylı
əlillər evində qeydiyyatda olan, ikinci
qrup əlil İbrahimzadə Ramiz tərəfindən

# TƏŞƏKKÜRNAMƏ

Bildirirəm ki, ikinci qrup əlil olduğum və hüquqi savadım olmadığı üçün mənim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə qarşı məhkəmə işimdə hüquqi yardım almaq üçün Vəkillər Kollegiyasının Aparatına müraciət etmişəm və aparat rəhbərliyi tərəfindən hüquqi yardım göstərilməsi üçün mənim müraciətim Hüquqi Yardım və Tədris Mərkəzinə yönləndirmişdir.

Hüquqi Yardım və Tədris Mərkəzi fəaliyyətə başladığı müddətdən bu günə qədər mənə dəfələrlə ödənişsiz hüquqi yardım göstərilmiş, ərizələr yazılmış və məsləhətlər verilmişdir. Hər dəfə mən hüquqi yardım almaq üçün Mərkəzə yaxınlaşanda qeydiyyatda əyləşən xanım tərəfindən mənim müraciətim qeydiyyata alınaraq vəkillərə yönləndirilmişdir.

Sonuncu dəfə hüquqi yardımla bağlı müraciət edən zaman məni Mərkəzdə işləyən hüquqşunas Nemət Süleymanova yönləndirmiş və onun tərəfindən mənə ərizə yazılmasında köməklik edilmişdir. Nəticədə məhəkmə işimin mənim xeyrimə həll edilməsi təmin edilmişdir.

Bu səbəbdən mənə hüquqi yardımın göstərilməsi ilə bağlı Anar müəllim ilk növbədə Sizə, Hüquqi Yardım və Tədris Mərkəzinə - Şahmar Məmmədova, Gülşən Salmanovaya , Nemət Suleymanova öz adımdan təşəkkürümü bildirirəm.

İmza: [signature] İbrahimzadə Ramiz

Tarix: 01.10.2021